AZƏRBAYCAN QİYMƏTLƏNDİRİCİLƏR PALATASI

AZ 1073, H. Cavid pr. 81 Tel.: (+994) 12 4920367, (994) 10 2600025 Veb: www.aqp.gov.az
Elektron poçt: info@aqp.gov.az

5 noyabr 2026-cı il **AQP-1/3-430/2026**

Təsdiq edirəm:
Azərbaycan Qiymətləndiricilər Palatasının
Rəyasət Heyətinin "20" oktyabr 2026-cı il tarixli
" 27 "nömrəli qərarı ilə

Rəyasət Heyətinin sədri
Nüsrət İbrahimov

Azərbaycan Qiymətləndiricilər Palatası yanında Standartlar və Metodologiya üzrə İşçi Komissiya haqqında

ƏSASNAMƏ

1. Ümumi müddəalar

1.1. Azərbaycan Qiymətləndiricilər Palatası (bundan sonra – AQP) yanında Standartlar və Metodologiya üzrə İşçi Komissiya (bundan sonra – Komissiya) AQP Rəyasət Heyətinin qərarı ilə yaradılan və daimi fəaliyyət göstərən məşvərətçi və ekspert qurumudur.

1.2. Komissiya öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Qiymətləndirmə fəaliyyəti haqqında" Qanununu, digər normativ hüquqi aktları, AQP Nizamnaməsini, Beynəlxalq Qiymətləndirmə Standartlarını (BQS), qiymətləndirmə fəaliyyətinin tələb etdiyi hallarda Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının (MHBS) müvafiq tələblərini, AQP-nin aidiyyəti olan daxili normativ sənədlərini və bu Əsasnaməni rəhbər tutur.

1.3. Komissiyanın əsas məqsədi qiymətləndirmə fəaliyyəti sahəsində vahid metodoloji yanaşmanın formalaşdırılması və təkmilləşdirilməsi əsasında beynəlxalq təcrübənin tətbiqi və normativ-metodiki sənədlərin hazırlanmasıdır.

1.4. Komissiyanın fəaliyyəti ekspert-məşvərətçi xarakter daşıyır və Qiymətləndirmə fəaliyyətinin tənzimlənməsi üzrə metodoloji sənədlərin hazırlanmasını təmin edir.

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Qiymətləndiricilər Palatası
İmzalayan şəxs: Nüsrət İbrahimov / Azərbaycan Qiymətləndiricilər Palatası / Sədr

Qeyd: «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
Sənədin elektron yüklənmə ünvanı:
https://qr.mesd.az/info/%2FxHiOXf8UWnD3h8ZIHI%2ByI4xmvHbmmLDsUfI0PmeRL9TXTkvzXsr3eVTJw%2BdUI14

Komissiyanın fəaliyyət dairəsinə aid edilmiş məsələlər üzrə onun tövsiyə etmədiyi sənəd layihələrinə və onlara edilən düzəlişlərə AQP Rəyasət Heyətində baxılmır.
1.5. Komissiyanın hazırladığı sənəd layihələri AQP Rəyasət Heyətinə təqdim olunur. "Qiymətləndirmə fəaliyyəti haqqında" Qanunun 19.2.2-ci və AQP Nizamnaməsinin 5.3.1.2-ci maddələrinə əsasən Ümumi yığıncağın müstəsna səlahiyyətinə aid edilmiş sənədlər (qiymətləndirmə üzrə yanaşma və metodlar, qiymətləndiricinin etik davranış qaydaları, qiymətləndirmənin nəticələri haqqında hesabatın nümunəvi forması) Rəyasət Heyətinin razılığı əldə edildikdən sonra Ümumi yığıncağın təsdiqinə təqdim olunur; digər metodiki sənədlər (tövsiyələr, izahatlar, tərcümələr, daxili qaydalar) Rəyasət Heyətinin qərarı ilə qüvvəyə minir.
1.6. Komissiya üzvləri öz fəaliyyətlərini qərəzsizlik, obyektivlik və şəxsi maraqların təsirindən azad olma prinsipləri əsasında həyata keçirirlər. Komissiya üzvünün baxılan məsələ üzrə şəxsi, maliyyə və ya peşəkar marağı olduqda, bu barədə əvvəlcədən Komissiyaya yazılı bildiriş verir və həmin üzv müvafiq məsələ üzrə müzakirədə və səsvermədə iştirak etmir.
1.7. Komissiya öz fəaliyyətini qiymətləndirmə peşəsinin ümumi mənafeyi naminə həyata keçirir; Komissiya üzvləri iş zamanı mənsub olduqları konkret təşkilatın, sahənin və s. deyil, bütövlükdə qiymətləndirmə fəaliyyətinin ictimai mənafeyini əsas götürürlər.

2. Komissiyanın əsas vəzifələri
2.1. Qiymətləndirmə fəaliyyəti sahəsində metodoloji bazanın formalaşdırılması və inkişaf etdirilməsi.
2.2. Beynəlxalq Qiymətləndirmə Standartlarının (IVS) ölkədə tətbiqi ilə bağlı metodiki sənədlərin hazırlanması.
2.3. Milli Qiymətləndirmə Standartlarının hazırlanması və təkmilləşdirilməsi üzrə təkliflərin işlənib hazırlanması.
2.4. Qiymətləndirmə fəaliyyəti ilə bağlı metodik sənədlərin və əlaqəli standartların ekspertizasının aparılması.
2.5. AQP tərəfindən qəbul ediləcək metodologiyaların, təlimatların, qaydaların və tövsiyələrin hazırlanması.
2.6. Qiymətləndirmə fəaliyyətinin müxtəlif istiqamətləri üzrə metodiki sənədlərin işlənib hazırlanması.
2.7. Qiymətləndirmə sahəsində istifadə olunan terminologiyanın sistemləşdirilməsi və vahid anlayışlar bazasının formalaşdırılması.
2.8. Qiymətləndirmə fəaliyyəti sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi ilə bağlı təkliflərin hazırlanması. Komissiya standart və metodologiyaların hazırlanması prosesində müvafiq beynəlxalq, həmçinin inkişaf etmiş ölkələrin milli standart və metodologiyalarını nəzərə alır.
2.11. Qiymətləndirmə fəaliyyətinin bütün iştirakçılarına və üçüncü şəxslərə əhəmiyyətli təsir edən sənəd layihələri (standartlar, metodologiyalar) AQP Rəyasət Heyətinə təqdim edilir, layihələrin ictimai-peşəkar müzakirəsi üçün ən azı 30 (otuz) təqvim günü müddət ayrılır;
2.12. Komissiya hər il Rəyasət heyəti tərəfindən təsdiq edilən, növbəti dövr üçün prioritet mövzuları müəyyənləşdirir və bu əsasında illik iş planının layihəsini hazırlayır.
2.13. Komissiya təsdiq edilmiş standart və metodologiyaların məhkəmələr, bank-maliyyə institutları, vergi və digər dövlət orqanları tərəfindən tətbiqi təcrübəsi haqqında

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Qiymətləndiricilər Palatası
İmzalayan şəxs: Nüsrət İbrahimov / Azərbaycan Qiymətləndiricilər Palatası / Sədr

Qeyd: «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
Sənədin elektron yüklənmə ünvanı:
https://qr.mesd.az/info/%2FxHiOXf8UWnD3h8ZIHI%2ByI4xmvHbmmLDsUfI0PmeRL9TXTkvzXsr3eVTJw%2BdUI14

məlumatları Palatanın əlaqədar bölmələrindən əldə edir və zərurət yarandıqda AQP Rəyasət Heyətinə müvafiq təkliflər verir.
2.15. Komissiya tərəfindən hazırlanan hər bir layihəyə onun əsaslandırılmasını əks etdirən izahedici qeyd əlavə olunur;
2.16. Rəyasət Heyəti tərəfindən təsdiq edilmiş və ya Ümumi yığıncağın təsdiqinə çıxarılmış hər bir sənəd azı 4 (dörd) ildə bir dəfə Komissiya tərəfindən icra təcrübəsi baxımından təhlil edilir və nəticələr barədə AQP Rəyasət Heyətinə məruzə təqdim edilir.

3. Komissiyanın fəaliyyət istiqamətləri
3.1. Qüvvədə olan Beynəlxalq Qiymətləndirmə Standartlarının Azərbaycan dilinə tərcüməsinin təşkili;
3.2. Növbəti Beynəlxalq Qiymətləndirmə Standartlarının qüvvəyə minəcəyi tarixə qədər onun tərcüməsinin başa çatdırılması və ayrı-ayrı standartlar üzrə metodoloji bazanın yenilənməsi;
3.3. Beynəlxalq qiymətləndirmə təşkilatlarının, regionlar, ərazilər və ölkələr üzrə peşəkar birliklərin qəbul etdiyi standartların və metodologiyaların, qabaqcıl və Azərbaycan üçün yararlı təcrübənin öyrənilməsi, uzlaşdırılması və tətbiqi;
3.4. Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının tələblərinə uyğun müstəqil qiymətləndirmə xidmətinin həyata keçirilməsi üzrə metodoloji, metodik və informasiya təminatının hazırlanması.
3.5. Komissiya, "Qiymətləndirmə fəaliyyəti haqqında" Qanunun tələblərinə müvafiq olaraq müəyyən edilmiş istiqamətlərdə və BQS tələblərinə müvafiq olaraq ayrı-ayrı aktivlərin qiymətləndirilməsi və qiymətləndirmə fəaliyyətinin aşağıdakı aktual sahələrində fəaliyyət göstərir və metodoloji təminatın hazırlanmasını təşkil edir:
3.5.1. daşınar əmlakın (maşın və avadanlıqların, nəqliyyat vasitələrinin, heyvan və bitkilərin və s.) qiymətləndirilməsi;
3.5.2. daşınmaz əmlakın, o cümlədən torpaq sahələrinin qiymətləndirilməsi;
3.5.3. daşınar və daşınmaz mədəni irs nümunələrinin, mədəni sərvətlərin, tarix, mədəniyyət və təbiət abidələrinin qiymətləndirilməsi;
3.5.4. müəssisələrin qiymətləndirilməsi;
3.5.5. qeyri-maddi əmlak nemətlərinin (əqli mülkiyyət hüququ obyektlərinin, hüquqi şəxslərin nizamnamə kapitalında (fondunda) və ümumi əmlakda paylarının və qiymətli kağızlarının, habelə tələblərin və hüquqların) qiymətləndirilməsi;
3.5.6. kreditor borcların və digər öhdəliklərin, debitor borcların, material ehtiyatlarının və digər aktivlərin qiymətləndirilməsi;
3.5.7. təbii sərvətlərin qiymətləndirilməsi;
3.5.8. dəymiş zərərin, əldən çıxmış mənfəətin və risklərin qiymətləndirilməsi;
3.5.9. xidmətlərin qiymətləndirilməsi;
3.5.10. digər qiymətləndirmə obyektlərinin qiymətləndirilməsi;
3.5.11. ESG amillərinin qiymətləndirmədə tətbiqi.
3.5.12. Startapların və innovativ layihələrin qiymətləndirilməsi.
3.5.13. Süni intellekt və rəqəmsal texnologiyaların qiymətləndirmə fəaliyyətində tətbiqi.
3.5.14. Beynəlxalq qiymətləndirmə, maliyyə, mühasibat uçotu və audit qurumlarının (İVS, İFAC, İPEV, RİCS və s.) tövsiyələri və AQP Rəyasət Heyətinin qərarları ilə müəyyən edilən qiymətləndirmənin digər aktual problemlərinə aid standart və metodologiyaların hazırlanması.

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Qiymətləndiricilər Palatası
İmzalayan şəxs: Nüsrət İbrahimov / Azərbaycan Qiymətləndiricilər Palatası / Sədr

Qeyd: «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
Sənədin elektron yüklənmə ünvanı:
https://qr.mesd.az/info/%2FxHiOXf8UWnD3h8ZIHI%2ByI4xmvHbmmLDsUfI0PmeRL9TXTkvzXsr3eVTJw%2BdUI14

4. Komissiyanın hüquqları
Komissiya aşağıdakı hüquqlara malikdir:
4.1. AQP Rəyasət Heyətinə təkliflər təqdim etmək.
4.2. Ekspertləri, elm sahəsində çalışanları, dövlət qurumlarının, ali təhsil müəssisələrinin və digər təşkilatların nümayəndələrini Komissiyanın fəaliyyətinə cəlb etmək.
4.3. Müvəqqəti və ya daimi işçi qrupları yaratmaq.
4.4. Fəaliyyət istiqamətləri üzrə məlumatlar, rəylər və təkliflər toplamaq.
4.5. İctimai və peşəkar müzakirələr təşkil etmək.
4.6. Beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində metodoloji layihələr hazırlamaq.
4.7. AQP üzvlərininin istifadəsi üçün metodoloji izahatların hazırlanmasını təşkil etmək.
4.8. Komissiya üzvləri təsdiq olunmamış sənəd layihələri, iclas müzakirələri və digər açıqlanmamış məlumatlar barədə məxfilik qaydalarına riayət etməyə borcludurlar.
4.9. Beynəlxalq Qiymətləndirmə Standartlarının (IVS) və digər beynəlxalq sənədlərin Azərbaycan dilinə tərcüməsi və nəşri həmin sənədlərin hüquq sahibi olan beynəlxalq təşkilatın (o cümlədən Beynəlxalq Qiymətləndirmə Standartları Şurasının - IVSC) qabaqcadan razılığı və lisenziya şərtləri əsasında həyata keçirilir.
4.10. Komissiya aşkar səhvə yol verilmiş və ya aktuallığını itirmiş müddəanın tətbiqinin bu müddəaya tam yenidən baxılana qədər müvəqqəti dayandırılması barədə əsaslandırılmış təklifi AQP Rəyasət Heyətinə vermək hüququna malikdir; bu təklif əsasında qəbul edilən dayandırma qərarı barədə Ümumi yığıncağın növbəti iclasına məlumat verilir.
4.11. Komissiya artıq qüvvədə olan sənədlərin mahiyyətini dəyişdirmədən onların rəsmi izahını hazırlamaq və AQP Rəyasət Heyətinin təsdiqinə təqdim etmək hüququna malikdir; əgər izahat sənədin mahiyyətini əhəmiyyətli dərəcədə dəyişdirirsə, bu Əsasnamənin 1.5-ci bəndi rəhbər tutulur və müəyyən edilmiş tədbirlər ümumi qaydada həyata keçirilir.
4.12. Komissiyanın Palata üzvlərinə verdiyi metodoloji izahatlar qeydiyyata alınır və Palatanın rəsmi internet səhifəsində elektron sorğu-cavab bazası şəklində, şəxsi məlumatlar aşkarlanmadan, ümumi istifadə üçün yerləşdirilir.

5. Komissiyanın tərkibi və formalaşdırılması
5.1. Komissiya 11 nəfərdən ibarət tərkibdə formalaşdırılır.
5.2. Komissiyanın tərkibi AQP Rəyasət Heyətinin qərarı ilə təsdiq edilir.
5.3. Komissiyanın sədri AQP Rəyasət Heyəti tərəfindən təyin edilir.
5.4. Komissiya sədrdən, sədr müavinindən və üzvlərdən ibarətdir.
5.5. Komissiyanın üzvləri qiymətləndiricilər və digər mütəxəssislər arasından seçilə bilər.
5.6. Komissiya üzvlərinin səlahiyyət müddəti 3 (üç) ildir.
5.7. Komissiya üzvü öz ərizəsi əsasında və ya Rəyasət Heyətinin qərarı ilə Komissiyanın tərkibindən çıxarıla bilər.
5.8. Komissiyanın sədr müavini və katibi Komissiyanın üzvləri arasından, Komissiyanın iclasında iştirak edən üzvlərin sadə səs çoxluğu ilə seçilir və bu barədə AQP Rəyasət Heyətinə məlumat verilir.
5.9. Komissiya üzvünün Rəyasət Heyətinin qərarı ilə tərkibdən çıxarılması yalnız aşağıdakı əsaslarla mümkündür: üzrsüz səbəbdən ardıcıl 3 (üç) və daha çox iclasda iştirak etməmək; məxfilik tələblərinin pozulması; maraqların toqquşması qaydalarının

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Qiymətləndiricilər Palatası
İmzalayan şəxs: Nüsrət İbrahimov / Azərbaycan Qiymətləndiricilər Palatası / Sədr
Qeyd: «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
Sənədin elektron yüklənmə ünvanı:
https://qr.mesd.az/info/%2FxHiOXf8UWnD3h8ZIHI%2ByI4xmvHbmmLDsUfI0PmeRL9TXTkvzXsr3eVTJw%2BdUI14

pozulması; Komissiyanın nüfuzuna xələl gətirən hərəkətlər. Üzv bu barədə qərarı Rəyasət Heyətində yazılı qaydada mübahisələndirmək hüququna malikdir.
5.10. Komissiya üzvünün səlahiyyətinə vaxtından əvvəl xitam verildikdə, onun yerinə yeni üzv 1 (bir) ay müddətində bu Əsasnamənin 5.2-ci bəndi ilə müəyyən edilmiş qaydada təyin edilir.
5.11. Komissiyanın qərarı ilə razılaşmayan üzv öz mövqeyini yazılı əsaslandırma ilə bildirmək və bu mövqeyin iclas protokoluna, zərurət yarandıqda isə Rəyasət Heyətinə təqdim olunan sənəd layihəsinə əlavə (xüsusi rəy) kimi əlavə edilməsini tələb etmək hüququna malikdir.
5.12. Komissiya üzvlərinin və cəlb edilmiş mütəxəssislərin bu Əsasnamənin 9.3-cü bəndinə uyğun olaraq könüllü əsaslarla iştirakı, onların Komissiyanın fəaliyyəti ilə bağlı zəruri və sənədləşdirilmiş xərclərinin (o cümlədən ezamiyyət xərclərinin) AQP-nin daxili sənədlərində müəyyən edilmiş qaydada ödənilməsi hüququnu istisna etmir.
5.13. Komissiya üzvləri və İşçi Qrupların üzvləri tərəfindən cəlb edilmiş mütəxəssislər tərəfindən Komissiyanın tapşırığı əsasında hazırlanmış standart, metodologiya, tərcümə və digər sənədlər (bundan sonra – əsərlər) üzərində əqli mülkiyyət hüquqları Azərbaycan Respublikasının Mülki Məcəlləsinin və "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanunun tələblərinə uyğun olaraq, tərəflər arasında bağlanılan yazılı razılaşma əsasında qismən AQP-yə keçə bilər. Bu şərt Komissiya və İşçi Qrup üzvlüyünə qəbul zamanı yazılı razılaşma (müəllif müqaviləsi) ilə təsbit edilir və aşağıdakı qaydalara uyğun olmalıdır:
5.13.1. müəllifin şəxsi (qeyri-əmlak) hüquqları, o cümlədən əsərin müəllifi kimi tanınmaq hüququ (müəlliflik hüququ), heç kimə, o cümlədən AQP-yə verilə bilməz; bu hüquqlar əmlak hüquqları AQP-yə verildiyi halda da müəllifdə qalır (“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Qanunun 14-cü maddəsinin 1-ci hissəsinin “a” bəndi və 2-ci hissəsi);
5.13.2. AQP-yə yalnız müəllifin əmlak (iqtisadi) hüquqları, yəni əsərdən istifadəyə müstəsna hüquqlar, müəllif müqaviləsi əsasında verilə bilər (həmin Qanunun 15-ci maddəsi və 30-cu maddəsinin 1-ci hissəsi);
5.13.3. müəllif müqaviləsi yazılı şəkildə bağlanır və orada AQP-yə verilən hüquqların müstəsna və ya qeyri-müstəsna olması, əsərdən istifadə üsulları, hüquqların verildiyi müddət və ərazi, habelə bu Əsasnamənin 9.3-cü bəndi nəzərə alınmaqla müəllif qonoraı və ya müəllifin qonorardan imtinası barədə şərtlər göstərilir (həmin Qanunun 15-ci maddəsinin 2-ci hissəsi, 31-ci maddəsinin 1-ci və 4-cü hissələri);
5.13.4. müəllif müqaviləsində başqa hal nəzərdə tutulmadıqda, AQP-yə verilən hüquqlar qeyri-müstəsna hüquqlar hesab olunur (həmin Qanunun 30-cu maddəsinin 4-cü hissəsi).
5.14. Komissiya üzvləri iclaslara hazırlıqlı gəlmək, materiallarla əvvəlcədən tanış olmaq və işçi qrupların fəaliyyətində fəal iştirak etmək öhdəliyini daşıyırlar.

6. Komissiyanın fəaliyyətinin təşkili
6.1. Komissiya öz fəaliyyətini illik iş planı əsasında həyata keçirir.
6.2. Komissiyanın iclasları ayda azı bir dəfə keçirilir.
6.3. Zərurət yarandıqda növbədənkənar iclaslar keçirilə bilər.
6.4. İclaslar əyani, distant və ya hibrid formatda təşkil edilə bilər.
6.5. Komissiyanın iclası üzvlərin yarısından çoxu iştirak etdikdə səlahiyyətli hesab edilir.
6.6. Qərarlar iştirak edən üzvlərin sadə səs çoxluğu ilə qəbul edilir.

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Qiymətləndiricilər Palatası
İmzalayan şəxs: Nüsrət İbrahimov / Azərbaycan Qiymətləndiricilər Palatası / Sədr

Qeyd: «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
Sənədin elektron yüklənmə ünvanı:
https://qr.mesd.az/info/%2FxHiOXf8UWnD3h8ZIHI%2ByI4xmvHbmmLDsUfI0PmeRL9TXTkvzXsr3eVTJw%2BdUI14

6.7. Səslər bərabər olduqda sədrin səsi həlledici hesab olunur.
6.8. İclasların protokolu tərtib edilir və Komissiyanın sədri tərəfindən imzalanır.
6.9. Komissiyanın katibliyi AQP İcra Aparatı tərəfindən təmin edilir.
6.10. Komissiyanın illik iş planı Komissiya tərəfindən hazırlanır və AQP Rəyasət Heyəti tərəfindən təsdiq edilir.

7. İşçi qrupları
7.1. Komissiyanın nəzdində ayrı-ayrı istiqamətlər üzrə işçi qrupları yaradıla bilər.
7.2. İşçi qrupları fəaliyyətlərinin nəticələri barədə Komissiyaya hesabat təqdim edirlər.

8. Hesabatlılıq
8.1. Komissiya ildə azı bir dəfə öz fəaliyyəti barədə AQP Rəyasət Heyətinə hesabat təqdim edir.
8.2. Hazırlanmış standartlar, metodologiyalar, təlimatlar və digər sənədlər AQP Rəyasət Heyətinə təqdim edilir; Qanunun 19.2.2-ci maddəsinin əhatə etdiyi sənədlər Rəyasət Heyətinin razılığından sonra Ümumi yığıncağın təsdiqinə çıxarılır.
8.3. Rəyasət Heyəti tərəfindən verilmiş tapşırıqların icrası barədə Komissiya müəyyən edilmiş qaydada məlumat verir.
8.4. Rəyasət Heyəti (aidiyyəti hallarda Ümumi yığıncaq) tərəfindən təsdiq edilmiş standartlar, metodologiyalar, təlimatlar və digər sənədlər AQP-nin rəsmi internet səhifəsində Palatanın bütün üzvlərinin sərbəst istifadəsi üçün yerləşdirilir.

9. Komissiyanın fəaliyyətinin təşkili
9.1. Komissiyanın fəaliyyətinin təmin edilməsi hər bir sənəd layihəsi üzrə müəyyən edilən və AQP Rəyasət Heyətinin qərarı ilə təsdiq edilən büdcə əsasında həyata keçirilir.
9.2. Komissiyanın fəaliyyətinin maliyyələşdirilməsi aşağıdakı mənbələrdən əldə olunan vəsaitlər, Komissiya üzvlərinin və cəlb edilmiş mütəxəssislərin şəxsi töhfəsi hesabına həyata keçirilir:
- Tədris və tərcümə materiallarının və Standartların satışından gəlir;
- AQP büdcəsində nəzərdə tutulmuş vəsaitlər;
- Sponsorların ayırdığı vəsaitlər;
- donorların və xidmət istifadəçilərinin ayırdığı vəsaitlər;
- Elmi-tədqiqatların birgə yerinə yetirilməsi hesabına universitetlərə və tədqiqat müəssislərinə ayrılan vəsaitlər;
- Sponsorların reklamlarının kağız daşıyıcılarında və elektron nəşrlərdə yerləşdirilməsindən əldə olunan gəlir;
- qanunvericiliklə qadağan olunmayan digər mənbələr.
9.3. Komissiya üzvlərinin və cəlb edilmiş mütəxəssislərin bu Əsasnamənin 9.2-ci bəndində nəzərdə tutulmuş töhfəsi yalnız könüllü intellektual iştirak formasında ola bilər; bu, onlar üçün maliyyə öhdəliyi yaratmır.

10. Yekun müddəalar
10.1. Bu Əsasnaməyə dəyişikliklər və əlavələr AQP Rəyasət Heyətinin qərarı ilə edilir.

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Qiymətləndiricilər Palatası
İmzalayan şəxs: Nüsrət İbrahimov / Azərbaycan Qiymətləndiricilər Palatası / Sədr
Qeyd: «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
Sənədin elektron yüklənmə ünvanı:
https://qr.mesd.az/info/%2FxHiOXf8UWnD3h8ZIHI%2ByI4xmvHbmmLDsUfI0PmeRL9TXTkvzXsr3eVTJw%2BdUI14

10.2. Bu Əsasnamə ilə tənzimlənməyən məsələlər Azərbaycan Respublikasının qanunvericiliyi və AQP-nin daxili sənədləri ilə tənzimlənir.
10.3. Bu Əsasnamə əsasında hazırlanmış və müəyyən edilmiş qaydada təsdiq edilmiş sənədlərin hüquqi qüvvəsi və tətbiqi ilə bağlı məsuliyyət onları təsdiq edən orqanın üzərinə düşür; Komissiya yalnız hazırlıq mərhələsində öz peşəkar səlahiyyəti çərçivəsində fəaliyyət göstərir.
10.4. Komissiyanın səlahiyyətləri AQP-nin digər struktur bölmələrinin səlahiyyətləri ilə üst-üstə düşdükdə, məsələ AQP Rəyasət Heyəti tərəfindən həll edilir.

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Qiymətləndiricilər Palatası
İmzalayan şəxs: Nüsrət İbrahimov / Azərbaycan Qiymətləndiricilər Palatası / Sədr

Qeyd: «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

Sənədin elektron yüklənmə ünvanı:
https://qr.mesd.az/info/%2FxHiOXf8UWnD3h8ZIHI%2ByI4xmvHbmmLDsUfI0PmeRL9TXTkvzXsr3eVTJw%2BdUI14